# YAP "Heydər Əliyev İli" çərçivəsində jurnalistlər arasında fərdi yazı müsabiqəsi elan edib

Yeni Azərbaycan Partiyası (YAP) "Heydər Əliyev İli" çərçivəsində jurnalistlər arasında "Heydər Əliyev və yeni Azərbaycan" mövzusunda fərdi yazı müsabiqəsi elan edir.

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müsabiqənin məqsədi Ümummilli Lider Heydər Əliyevin həyat yolunun, xalqımız qarşısında müstəsna xidmətlərinin, zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının hərtərəfli tədqiq olunaraq geniş ictimaiyyətə çatdırılması və yeni nəslə aşılanması, jurnalistlərin yaradıcılıq fəaliyyətinin stimullaşdırılmasıdır.

Müsabiqəyə təqdim olunacaq yazılar "Tənəzzüldən intibaha: SSRİ dönəmində Azərbaycanın yüksəlişi", "Qurtuluşdan tərəqqiyə: müstəqillik dövründə Heydər Əliyevin yeni və müasir dövlət quruculuğu", "Tərəqqidən Zəfərə: Heydər Əliyev ideyaları ilə yeni zirvələrə doğru" nominasiyalardan biri üzrə hazırlanmalıdır.

Müsabiqədə ən azı bir il müddətində kütləvi informasiya vasitələrində fasiləsiz çalışan şəxslər iştirak edə bilərlər.

Təqdim olunan yazının mövzusu təklif olunmuş nominasiyalardan birinə uyğun olmalıdır. Müsabiqə iştirakçısı yalnız bir nominasiya üzrə yazı təqdim edə bilər. Müsabiqə iştirakçılarının yazıları çalışdıqları mətbuat orqanlarında dərc olunmalıdır.

Yazı mətbu orqanda dərc olunduğu təqdirdə nəşrin bir nüsxəsi, internet media resursunda dərc olunduğu halda isə müvafiq keçid-link təqdim edilməlidir. Yazının elektron variantı (Times New Roman (12) şriftində - CD diskdə) - bir nüsxə və yazının A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstərilməməlidir) - dörd nüsxə olmalıdır. Yazıların həcmi A3 formatında bir səhifə  (9-11 min işarə) olmalıdır.

Tələb olunan sənədlər şəxsiyyət vəsiqəsinin və jurnalist vəsiqəsinin surətləri, həmçinin şəxsi bank rekvizitləridir (hesabın aktiv olması təsdiqlənməlidir).

Mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma, yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi, jurnalist obyektivliyi və məsuliyyəti, dövlətçilik maraqlarının müdafiəsi müsabiqənin qiymətləndirmə meyarlarıdır.

Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılmasında hər bir nominasiya üzrə I, II və III yerlər olmaqla üç iştirakçı mükafatlandırılacaq. I yerə 700 manat, II yerə 500 manat və III yerə 300 manat olmaqla pul mükafatları təqdim ediləcək.

Müsabiqədə iştirak etmək üçün yazıların qəbulu 2023-cü il iyunun 1-i saat 18:00-dək davam edəcək.

Tələb olunan sənədlər Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına (Bakı şəhəri, S.Senyuşkin küçəsi 26) təqdim edilməlidir.

Əlavə məlumat üçün aşağıdakı əlaqə vasitələrindən istifadə oluna bilər.

Telefon: (012) 490 80 33 / 077 440 02 00,
e-mail: yapmetbuat@mail.ru.

---

Azərbaycan.- 2023.- 6 aprel.- S.7.